EHEAROME2020

# Nazirlərin Roma Bəyanatı

ƏLAVƏ III

EUROPEAN
Higher Education Area

bologna process

ITALIAN BFUG SECRETARIAT
2018-2020

IN·GLOBAL
Enhancing Knowledge of the EHEA and Global Dialogue

Translated within the Erasmus+ project "IN-GLOBAL Enhancing Knowledge of the EHEA and Global Dialogue" in 2023.

The original version of the Rome Communiqué and its annexes are available on the website of the European Higher Education Area:
https://ehea.info/page-ministerial-conference-rome-2020

**Co-funded by the European Union**

Funded by the European Union. Views and opinions expressed are however those of the author(s) only and do not necessarily reflect those of the European Union or the European Education and Culture Executive Agency (EACEA). Neither the European Union nor EACEA can be held responsible for them.

EHEAROME2020

# AATM-də Ali Təhsil sahəsində Öyrənmə və Tədrisi Təkmilləşdirmək Məqsədilə Milli Hakimiyyət Orqanlarına Tövsiyələr

Öyrənmə və Tədris üzrə BTİQ-in Məşvərət Qrupu 2 tərəfindən hazırlanmışdır.

Nazirlər 2018-ci il Nazirlərin Paris Bəyanatına dəyişiklik edərək "innovativ öyrənmə və tədris metodları sahəsində əməkdaşlığı AATM-in yeni fərqləndirici xüsusiyyəti kimi" elan etdilər.

Bu məqsədlə, nazirlərə və milli hakimiyyət orqanlarına Avropa ali təhsil sistemləri daxilində və onlar arasında əməkdaşlığı və tərəfdaşlığı gücləndirmək sahəsində fəaliyyətə dair tövsiyələr təklif olunur.

Tövsiyələr 24-25 may 2018-ci il Nazirlərin Paris Bəyanatında qeyd edilən AATM-in əsas dəyərlərinə tam uyğundur: "Akademik azadlıq və dürüstlük, institutsional muxtariyyət, tələbələrin və işçilərin ali təhsilin idarə edilməsində iştirakı, ali təhsil üçün ictimai məsuliyyət AATM-in əsasını təşkil edir."

Covid-19 sağlamlıq böhranı konteksti Qrupun tövsiyələrinin vacibliyini bir neçə aspektdə yenidən vurğulayır. Pedaqoji innovasiyalara ehtiyac, onlayn və açıq təhsil resurslarının gələcək inkişafı, eləcə də tədqiqatlar və tədris arasında əlaqənin gücləndirilməsi ilə bağlı məsələlər xüsusilə aktualdır.

Aşağıda qeyd olunan tövsiyələr tələbəmərkəzli öyrənmə metoduna olan tələbatın, təkmilləşdirilmiş tədrisin və bütün maraqlı tərəfləri əhatə edən milli və beynəlxalq dialoqun ümumi əhəmiyyəti ətrafında strukturlaşdırılmışdır. Bu üç mövzu bir-birinə bağlı və eyni dərəcədə vacibdirlər.

Tövsiyələr, həmçinin, əldə edilmiş təlim nəticələri və onunla bağlı iş yükünü, eləcə də Bolonya Prosesinin digər əsas öhdəliklərini göstərmək üçün Bolonya alətlərinin, xüsusilə AKTS-in rolunun gücləndirilməsinin əhəmiyyətini vurğulayır. Ali təhsilə məsul olan dövlət orqanları aşağıdakı vəzifələri öhdəlik olaraq öz üzərinə götürməlidirlər:

**1.** Tələbəmərkəzli öyrənmənin aşağıdakı tövsiyələr əsasında reallaşdırması:

- tələbə, müəllim və müvafiq maraqlı tərəfləri cəlb etməklə, tədris və öyrənmənin innovasiyası və təkmilləşdirilməsi üzrə strukturlaşdırılmış dialoqa başlamaq və ya hazırda mövcud olan dialoqun davamlılığını təmin etmək səylərində ali təhsil müəssisələrini dəstəkləmək. Burada kurikulumlar, təlim nəticələri, qiymətləndirmə və keyfiyyət təminatının təkmilləşdirilməsi nəzərdə tutulmalı və cari və gələcək sosial problemlərin həlli üçün lazım olan bacarıqlar nəzərə alınmalıdır;
- dünyanın problemlərini başa düşmək, başqalarına və ətraf mühitə hörmət etmək məqsədilə 21-ci əsrin maarifləndirilmiş vətəndaşı olmaq üçün lazım olan yumşaq bacarıq və səriştələrin inkişafını təşviq etmək;
- aktiv metodlara xüsusi diqqət yetirməklə, öyrənmə və tədrisin təkmilləşdirilmiş keyfiyyətini dəstəkləmək üçün qabaqcıl təcrübənin transsərhəd mübadiləsini təşviq etmək yollarını araşdırmaq;
- həm maliyyələşdirmə, həm də qanunvericilik nöqteyi-nəzərindən ali təhsil müəssisələrinin təhsilin müxtəlif tipli tələbələrinin (ömür boyu və qiyabi təhsil alanlar, azlıqlara və sosial həssas qruplara aid olan, sağlamlıq imkanları məhdud olan tələbələrin) ehtiyaclarına uyğunlaşdırılmasına imkan verən əlverişli mühit, bərabərlik və inklüzivlik mədəniyyəti yaratmaq; Buraya institutsional və milli səviyyədə, eləcə də

- AATM daxilində çevik öyrənmə yollarının (mikro-kreditlər də daxil olmaqla) yaradılması və bunun üçün rəqəmsal texnologiyaların təklif etdiyi imkanların araşdırılması daxildir;
- Açıq Təhsilə və Açıq Təhsil Resurslarından istifadəyə dair milli və institutsional strategiyaların və yanaşmaların işlənib hazırlanması və həyata keçirilməsinin həvəsləndirilməsi və dəstəklənməsi;
- universitetlər arasında əvvəlcədən müəyyən edilmiş razılaşmalardan kənar tələbə mobilliyini təşviq etmək.

**2.** Tədrisin davamlı olaraq təkmilləşdirilməsinin aşağıdakı tövsiyələr əsasında təşviqi:

- öz vəzifələrini yerinə yetirməyə müxtəlif vasitələr və təlimlər vasitəsilə köməklik göstərən akademik və işçi heyətdən ibarət təhsil qruplarının (institutsional və/və ya strukturlararası qrupların) yaradılmasının təşviq edilməsi;
- müəllimlərin davamlı peşəkar inkişafının (DPİ) artırılmasında və (xarici) qabaqcıl təcrübə mübadiləsində ali təhsil müəssisələrinin dəstəklənməsi. Müəssisələrarası kadrların inkişafı tədbirləri və kooperativ milli strukturların yaradılması DPİ-nin gücləndirilməsi yolları kimi nəzərdən keçirilə bilər;
- keyfiyyətli tədrisin və öyrənmənin transformasiyası, xüsusən də rəqəmsal, institutsional və milli səviyyələrdə davamlı və dəstəkləyici mühitin yaradılmasında ali təhsil müəssisələrinin dəstəklənməsi. Belə bir mühit tədrisə məsul olan işçilərlə əməkdaşlıq çərçivəsində yaradılmalı və layiqli iş şəraiti və idarə oluna bilən tədris iş yükü, eləcə də cəlbedici iş imkanları olan çərçivəni əhatə etməlidir;
- ali təhsil müəssisələri ilə əməkdaşlıqda (buraya tədrisə məsul olan bütün şəxslərin cəlb edilməsi nəzərdə tutulur) tədris və tədqiqata yanaşmanın bərabərliyini təmin etmək üçün struktur tədbirlərini təmin etmək. Zəruri hallarda, akademik sahədə tədris fəaliyyətinin daha yaxşı tanınmasını təmin etmək üçün akademik karyera yolları nəzərdən keçirilməlidir;
- ali təhsil müəssisələri ilə əməkdaşlıqda, digər innovativ yanaşmalarla yanaşı, fənlərarası və multidissiplinar yanaşmalara, tədqiqata əsaslanan öyrənmə və tədrisə, öyrənməyə dair təhlillərdən və açıq təhsildən düzgün istifadəyə diqqət yetirməklə yeni və innovativ tədris metodlarının inkişafı yollarını araşdırmaq.

**3.** Ali təhsil müəssisələrinin və sistemlərinin potensialının gücləndirilməsi məqsədilə öyrənmə və tədrisin aşağıdakı tövsiyələr əsasında təkmilləşdirilməsi:

- milli ali təhsil strategiyası və yanaşmalarına öyrənmə və tədrisin təkmilləşdirilməsini daxil etməklə. Bu cür strategiya və yanaşmaların işlənib hazırlanması və həyata keçirilməsi ali təhsil müəssisələri və öyrənmə və tədris icmasının digər maraqlı tərəfləri arasında strukturlaşdırılmış və davamlı dialoqun əsasını təşkil etməlidir;
- empirik təhsil tədqiqatları, layihələr və pilot layihələr vasitəsilə həm milli, həm də institusional səviyyədə öyrənmə və tədrisin strateji inkişafı və innovasiya potensialının dəstəklənməsi, məlumatların məxfiliyinə riayət etməklə, təhsil məlumatların toplanması və istifadəsi;
- milli səviyyədə və bütün AATM-da, məsələn, mübadilə və əməkdaşlıq platformaları ilə qabaqcıl təcrübənin transsərhəd mübadiləsini stimullaşdırmaq və dəstəkləmək yollarının araşdırılması;
- ali təhsil müəssisələrinin innovativ və yüksək keyfiyyətli tədris və öyrənmə mühitlərini inkişaf etdirməsinə imkan yaratmaq üçün müvafiq və davamlı maliyyə və resursların ayrılması və zəruri hallarda, müvafiq normativ hüquqi aktların qəbul edilməsi.

Bolonyanın Tətbiqi üzrə İşçi Qrupunun növbəti iş planında AATM-də birgə irəliləyiş əldə etmək məqsədilə öyrənmə və tədris üzrə tövsiyələrin həyata keçirilməsinin dəstəklənməsi və nəticəsi barədə hesabatın 2024-cü il Bolonya Prosesinin İcrası Hesabatı çərçivəsində verilməsi xahiş olunur.

Co-funded by
the European Union

This translation is co-funded by the European Union. Views and opinions expressed are however those of the author(s) only and do not necessarily reflect those of the European Union or the European Education and Culture Executive Agency (EACEA). Neither the European Union nor EACEA can be held responsible for them.

EUROPEAN
Higher Education Area

bologna
process

ITALIAN **BFUG** SECRETARIAT
**2018-2020**